

Əl işdən soyumaz, ürək arzudan...

# QƏBƏLƏ

ictimai-siyasi qəzet

№ 45-46 (7566-7567) ✲ 1933-cü ildən nəşr olunur ✲ Cümə, 11 oktyabr 2019-cu il. ✲ news@qebele-ih.gov.az


## PREZIDENTIN İŞ GÜNDƏLİYİNDƏN

***8 oktyabr***

Bakının Qaradağ rayonunda məcburi köçkünlər üçün salınmış "Qobu Park-2" yaşayış kompleksinin açılışı olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər.

***7 oktyabr***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə telefonla zəng edib. Dövlətimizin başçısı Vladimir Putini ad günü münasibətilə səmimi-qəlbdən təbrik edib, ona Rusiya dövlətinin və xalqının tərəqqisi naminə prezidentlik fəaliyyətində yeni-yeni uğurlar və möhkəm cansağlığı arzulayıb.

✲ ✲ ✲

Ölkə Prezidenti İlham Əliyev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Baş katibi Bağdad Amreyevi qəbul edib.

***6 oktyabr***

Dövlətimizin başçısı İlham Əliyev Soçi şəhərinə səfəri zamanı "Valday" Beynəlxalq Diskussiya Klubunun iclası ərəfəsində Rusiyanın "Rossiya" və "Birinci" televiziya kanallarına müsahibə verib.

***4 oktyabr***

Soçidə dövlət başçılarının "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının iştirakçıları ilə qeyri-formal görüşü olub. Rusiya Prezidenti Vladimir Putin, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev və Azərbaycan Prezidenti İlham Əliyev görüşdə çıxış ediblər.

***3 oktyabr***

Rusiya Federasiyasının Soçi şəhərində "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyası keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sessiyada iştirak edib.

✲ ✲ ✲

Soçidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin görüşü olub. Prezident Vladimir Putin Prezident İlham Əliyevi qarşılayıb.

***2 oktyabr***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə Rusiya Federasiyasına işgüzar səfərə gedib.

***1 oktyabr***

Prezident İlham Əliyev ölkəmizdə həyata keçirilən növbəti siyahıyaalınmada iştirak edərək siyahıyaalma və sorğu vərəqələrinin suallarını cavablandırıb.

**İlham ƏLİYEV:** *Dövlət tərəfindən yaradılan iş yerləri, sadəcə olaraq sosial xarakter alır. Biz bunu edirik və edəcəyik. Ancaq bu missiyanı özəl sektor sərmayə qoyuluşu hesabına öz üzərinə götürməlidir.*

# Əhalinin məşğulluğu sosial həyatın əsas göstəricisidir



Əhalinin sosial durumunun yaxşılaşdırılması sahəsində məşğulluq probleminin həlli ön sırada durur. Buna görə də Azərbaycan Respublikası Prezidentinin rəhbərliyi ilə ölkəmizdə əhalinin məşğulluğunun təmin edilməsi üçün ardıcıl tədbirlər həyata keçirilir. Bunun nəticəsidir ki, 15 il öncə Respublikamızda əhalinin 49 faizi işsiz idisə hazırda, bu rəqəm 5,4 faizə enmişdir.

Bu müddətdə çoxsaylı yeni müəssisələr yaradılmış, ənənəvi kənd təsərrüfatı sahələrinin-üzümçülüyün, pambıqçılığın, tütünçülüyün, maldarlığın, meyvəçiliyin və s. inkişafı üçün dövlət qayğısı daha da güclənmişdir. Sirr deyil ki, ötən əsrin 70-ci-80-ci illərində kənd əhalisinin 80 faizə qədəri yuxarıda qeyd etdiyimiz kənd təsərrüfatı sahələrində və həmin məhsulların emalı üçün yaradılmış çox saylı müəssisələrdə çalışırdı.

Ötən əsrin 80-ci illərinin sonu, 90-cı illərdə respublikada baş verən ictimai-siyasi proseslər sözsüz ki, iqtisadiyyatda da öz əksini tapmış, kənd əhalisinin məşğulluğunun əsas sahəsi olan üzümçülük, pambıqçılıq, tütünçülük və sair ənənəvi sahələr sıradan çıxmışdı. Nəticədə yüz minlərlə işsiz ordusu üzünü şəhərə tutmuşdu. Şəhərlərdə də zavod və fabriklərin çoxu fəaliyyətini dayandırdığına görə burada da işsizlik baş alıb gedirdi.

Ümummilli liderimiz Heydər Əliyev 1993-cü ildə xalqın təkidi ilə hakimiyyətə gəldikdən sonra digər məsələlər kimi işsizlik probleminin həlli üçün də ciddi addımlar atdı. Birinci növbədə dahi rəhbər iş yerlərinin bağlanması səbəblərinin dərindən araşdırılması, imkan daxilində onların fəaliyyətinin yenidən bərpası üçün tapşırıqlar verdi. Ölkəyə bütün vasitələrlə xarici investisiyaların cəlb olunmasına başlandı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dahi rəhbərin bu sahədə başladığı işi uğurla davam etdirdi. Nəticələr göz qabağındadır. Prezident İlham Əliyevin təşəbbüsü ilə qəbul edilmiş regionların sosial iqtisadi inkişafına dair dövlət proqramları əhalinin məşğulluğunun təmin edilməsi sahəsində misli görünməmiş nailiyyətlərin əldə olunmasına şərait yaratdı.

Dövlət proqramlarının həyata keçirilməyə başlandığı son 15 ildə respublikada ümumilikdə 2 milyondan çox yeni iş yeri yaradılmışdır. Bu iş ildən-ilə daha geniş vüsət alır. Belə ki III Dövlət proqramının icrasını əhatə edən 2014-cü ildən 1 yanvar 2019-cu ilədək ölkədə 960,1 min iş yeri yaradılıb ki, bu əvvəlki 8 ildə yaradılan iş yerlərindən çoxdur. Bu ilin birinci yarısında ölkədə yeni iş yerlərinin sayı 92 min olub. Yaxşı haldır ki, bu iş yerlərinin 30 faizə yaxını qeyri-dövlət sektorunun payına düşür. Keçən ilki yeni iş yerlərinin 72,8 faizi regionlarda yaradılmışdır ki, bu da əhalinin bölgələrdən mərkəzə axışmasının qarşısının alınmasını təmin edən əsas amillərdəndir.

Son illər dövlət başçısının tapşırığı ilə həyata keçirilən özünüməşğulluq proqramı da əhalinin işsizliyinin azaldılmasında, rifah halının yaxşılaşmasında mühüm rol oynayır. Özünüməşğulluq proqramını uğurla həyata keçirənlər özləri də yeni iş yerlərinin açılmasına töhvə verirlər. Ona görə də işsizliyin aradan qaldırılması üçün həyata keçirilən bu proqram çox pespektivli sayılmalıdır. Bir sözlə, məşğulluğun həlli ölkə iqtisadiyyatının inkişafının mühüm amillərindən, sosial həyatın göstəricilərindən biridir.

**Qüdrət SƏMƏDOV,**
**«Qəbələ»**